*http://doi.org/10.58225/sw.2023.2-230-235*

# AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINI ŞƏRTLƏNDİRƏN BƏZİ AMİLLƏR

**Aslanova Turan Tofiq qızı**– i.ü.f.d., dos., Sənayenin təşkili və idarə edilməsi kafedrası, AzMİU, turan.aslanova@mail.ru
**Fətahova Nərgiz Rafael qızı**- i.ü.f.d., İqtisadi nəzəriyyə və marketinq kafedrası, AzMİU, nargiz.fataxova@mail.ru

**Xülasə.** Məqalədə iqtisadi inkişafın təmin edilməsi üçün sənayenin vacibliyi vurğulanır. Bununla bağlı beynəlxalq təcürbədən nümunələr gətirilir. Eyni zamanda məqalədə, iqtisadiyyatın formalaşmasında təbii-iqtisadi üstünlülərin böyük paya sahib olduğu və müasir dövrümüzdə isə elmi-texniki tərəqqinin, innovasiyaların və investisiyaların əhəmiyyətli rola malik olduğu vurğulanır. İqtisadi prororionallığı və rəqabəti təmin etmək bağımından Hirişman-Herfindal indeksi iqtisadiyyatın müxtəlif sektorları üzrə hesablanır və bu baxımdan biz də tədqiqatımızda istifadə etmişik. Alınan nəticə föstərir ki, ümumən ölkə iqtisadiyyatında təmərgüzləşmə yoxdur, lakin mədənçıxarma sənayesi üzrə müəyyən mənfi və xoşagəlməz tendensiyalar ümumi iqtisadi inkişafda ola bilər. Qeyri-neft sektorunun inkişafı ilə bağlı yanaşmaları göstərmək və qeyri-neft sektorunun mövcud vəziyyətini qiymətləndirməkdir. Qeyri-neft sektorunun potensial inkişafı baxımından aşağı səviyyədə təmərküzləşmə meyllərinin hiss edilməsi vardır ki, bu da həm ölkədə rəqabətin inkişafın və həm də yeni iş yerlərinin yaradılmasına maneə ola bilər. Qeyri-neft sektorunun inkişafının davamlılığı və milli iqtisadiyyatın inkişafı baxımından hirişman-herfindal indeksi hesablanmışdır.
**Açar sözlər: sənaye,** qeyri-neft sektoru, milli iqtisadiyyat, müqayisəli üstünlük, biznesə inam indeksi, hirişman- herfindal indeksi

# SOME FACTORS DETERMINING THE DEVELOPMENT OF THE NON-OIL SECTOR IN AZERBAIJAN

**Aslanova Turan Tofig-** PhD in econ., ass.prof., department of Organization and management of industry, AzUAC, turan.aslanova@mail.ru
**Fatahova Nargiz Rafael-** PhD, department of Economic theory and marketing, AzUAC, nargiz.fataxova@mail.ru

**Abstract.** The article emphasizes the importance of industry for ensuring economic development. In this regard, examples from international experience are given. At the same time, the article emphasizes that natural-economic advantages have a large share in the formation of the economy, and in our modern era, scientific-technical progress, innovations and investments have an important role. In order to ensure economic proportionality and competition, the Hirishman-Herfindahl index is calculated for various sectors of the economy, and in this regard, we have used it in our research. The result shows that there is no centralization in the country's economy in general, but there may be certain negative and unpleasant trends in the mining industry in general economic development. The purpose of the article is to show the approaches related to the development of the non-oil sector and evaluate the current situation of the non-oil sector. The results of the article - in terms of the potential development of the non-oil sector, there are low levels of concentration tendencies, which can be an obstacle to the development of competition in the country and the creation of new jobs. The Hirschman-Herfindahl index was calculated in terms of the originality of the article- the sustainability of the development of the non-oil sector and the development of the national economy.
**Keywords:** industry, non-oil sector, national economy, comparative advantage, business confidence index, hirishman-herfindahl index

**Giriş.** İnkişaf etmiş ölkələrdə iqtisadiyyatın əsasını sənaye sahələri təşkil edir. Təsadüfi deyildir ki, bir çox iqtisadçı hazır sənaye məhsulunun milli ixracda payının 40%-dən az olmasını adətən sənayenin zəif inkişafı kimi xarakterizə edirlər. Bu baxımdan inkişaf etmiş ölkələrdə sənaye siyasətinə ümumən əlverişli biznes mühütinin yaradılması, sənayenin ayrı-ayrı sahələrinin davamlı inkişafını təmin etmək üçün sosial və sənaye infrastrukturunun yaradılması siyasəti kimi yaxınlaşdığını görürük. Sənaye siyasəti ilə bağlı beynəlxalq təcrübənin təhlili göstərir ki, onun həyata keçirilməsi ölkənin xarakterik xüsusiyyətlərindən, inkişaf səviyyəsindən, qlobal aləmdə malik olduğu müqayisəli üstünlüklərdən asılıdır. Sənayenin inkişafı texnologiya axınlarını və yeni iş yerlərinin yaradılmasını təşviq edir, yeni təhsil proqramlarının hazırlanmasını stimullaşdırır, insan kapitalının inkişafını, sənaye bacarıqlarının artmasını, sosial infrastrukturun, maliyyə alətlərinin və maliyyə bazarlarının formalaşdırılması da daxil olmaqla bir neçə istiqamət üzrə fəaliyyətlərin əlaqələndirilməsi və nizama salınmasına səbəb olur. Bu baxımdan təsadüfi deyildir ki, inkişaf etmiş ölkələr biznesə inam və istehlakçı inam indekslərini hər ay qiymətləndirir və bunun inkişafına uyğun qərar qəbul edirlər.

Müşahidələr göstərir ki, 2018-2022-ci ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələri üzrə Biznesə İnam və İstehlakçı İnamı indeksi aşağıdakı kimidir.




| | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| İstehlakçı İnam İndeksi (İİİ) | 97.2 | 97.5 | 97.8 | 98.1 | 96 |
| Biznes İnam İndeksi (Bİİ) | 96.7 | 96.9 | 97.2 | 99.7 | 98.8 |

**Şəkil 1.** 2018-2022-ci ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələri üzrə Biznesə İnam və İstehlakçı İnamı indeksi [1]

2022-ci ildə İstehlakçı inam indeksi və biznesə inam indeksinin azalmağa meyilli olması inflyasiya gözləntilərinin aşağı düşməsi ilə bağlı olmuşdur.

**Sənaye sahələrinin formalaşmasın nəzri-metodoloji xüsusiyyətləri**. Araşdırmalar təsdiqləyir ki, istənilən ölkədə iqtisadiyyatın strukturunun formalaşması kortəbii prosesin nəticəsi olmamışdır. Nəzəri yanaşmalar göstərir ki, iqtisadiyyatın strukturunun formalaşmasında əsas məsələ ölkələrin malik olduğu təbii üstünlüklər olmuşdur. Başqa sözlə, hansı ölkə hansı istehsal faktoru daha çox boldursa həmin sahənin inkişafı labüd hala çevrilmişdir. Neft ehtiyyatları bol olan ölkələr neft sahəsinin inkişafı üzrə, əmək resursları bol olan ölkələr kənd təsərrüfatının inkişafı üzrə, elm-texnika sahəsi inkişaf edən ölkələr isə texnologiya sahəsi üzrə ixtisaslaşdığını görürük.

Qlobal aləmdə sənayenin inkişafı ilə əlaqədar əgər 1900-cü ildə dünya enerji daşıyıcılarında neft və neft məhsullarının payı 3% olmuşdursa bu göstərici, 1914-cü 5%, 1939-cu ildə 17,5%, 1975-ci ildə 41,5%, 2000-ci ildə 65%, 2017-cu ildə 70% qədər qalxmışdır. 1995-cü ildə ildə hibrid (elektrik) avtomobillərin meydana gəlməsi və gələcəkdə bu tendensiyanın güclənməsi neft məhsullarına olan tələbin zamanla azalacağını göstərir [2]. İnkişaf etmiş ölkələrin təcürbəsi təsdiqləyir ki, sənaye sahələrinin formalaş-ması xüsusiyyətləri cəmiyətin artan tələblərini nəzərə alaraq bir qayda olaraq, istehsalın transformasiyasına yönəldilməlidir. Sənaye sahələrinin formalaşması xüsusiyyətləri ilə bağlı nəzəri yanaşmalar göstərir ki, əsas amillər kimi aşağıdakılara üstünlük verilməsi məqsədəuyğundur [3].

1. Sənaye sahələrinin formalaşdırılarkən ilk növbədə özəl sektorda müqayisəli və rəqabət üstünlüyü ön planda olmalıdır. Təcürbə göstərir ki, iqtisadi resurslarla (kapital, əmək, təbii ehtiyatlarla) təchiz edilmə heç də həmişə istehsalın mövcud strukturunun optimallığına və rəqabətin təmin edilməsinə uyğun gəlmir. Bu məsələdə dövlətin müəyyən tənzimlənmə tədbirləri həyata keçirilməsinə ehtiyac duyulur.

Azərbaycan alimlərindən D.Ə.Vəliyev, A.M.Əsədov öz tədqiqatlarında göstərirlər ki, istehsal amillərinin qeyri-bərabər artımı bir sıra mənfi nəticələr doğurur. Hər hansı bir istehsal amilinin sürətli artımı, onun intensiv istifadə olunduğu iqtisadiyyat sahəsində xüsusi çəkisinin coxalmasına səbəb olur. Bu bütün digər şərtlər daxilində başqa istehsal sahələrinin nisbi azalmasına gətirib çıxarır. Çünki, ucuzlaşmış istehsal amili daha çox istifadə olunan sahə həm də istehsal amillərini digər sahələrdən özünə daha çox cəlb edir[4].

2. Elmi-texniki tərəqqinin (ETT)naliyyətlərinə və innovasiyalara dəstəyin göstərilməsi. Çağdaş dövrümüzdə ETT-nin və innovasiya iqtisadiyyatın strukturuna təsiri böyükdür. ETT yüksək inkişaf edən ölkələrdə texnoloji və struktur işsizliyinin yaranmasına gətirib çıxarır. Nəzərə almaq lazımdır ki, texnoloji işsizlik elmi-texniki tərəqqinin nəticəsində yaranır. Struktur işsizlik isə elmi-texniki tərəqqinin təsiri altında iqtisadiyyatın miqyasında stuktur dəyişikliyi olur.

Müşahidələr təsdiqləyir ki, iqtisadiyyatının strukturunun formalaşdırılması cəmiyyətin artan tələbi qarşısında bir çox hallarda yetrli olmur. Bu baxımdan iqtisadi inkişafı stimullaşdırılma məsələləri əhəmiyyət kəsb edir. Bu zaman;

–Aktiv sənaye struktur siysasəti

–Passiv sənaye struktur siysasəti.

Aktiv sənaye struktur siyasətində dövlət iqtisadiyyatın proporsionalığına, passiv sənaye struktur siysasətində isə əsas diqqət iqtisadiyyatın bazar mexanizminin formalaşdırılmasına yönəldilir. Belə halda iqtisadiyyatda tələb vasitəsilə iqtisadiyyatın strukturunun formalaşdırılmasına yönəldilir və dövlət bu məsələdə yalnız kapitalın sərbəst axını üçün qanuni əsas yaradır.

İqtisaiyyatın sahə strukturu formalaşma xüsusiyyətindən aslı olaraq onu qiymətləndirmək mümkündür. Belə yanaşmalardan biri də Beynəlxalq praktikada konsentrasiya və ya ölkədə rəqabəti səviyyəsini qiymətləndirmək üçün istifadə edilən Herfindal-Hirşman İndeksidir(HHİ). Daha doğrusu, 1982-ci ildən ABŞ Ədliyyə Departamentinin Federal Ticarət Komissiyası inhisarçılığı araşdırır. Əşyaları almaq üçün HHI-dən istifadə olunur. İQİ hər hansı bir ölkənin iqtisadi sektorunun fərdi göstəricilərini nəzərə alan bir indeks olduğundan, CPI-nin dəyişməsi onun arasında olacaq. Təcrübədə HHI-nin hesablanması aşağıdakı kimidir [5].

$$HH\dot{I} = \sum_{i=1}^{n} S_i^2$$

Hirshman-Herfindal indeksinin mahiyyəti ondan ibarətdir ki, sektorların ÜDM-də bazar paylarının kvadratı Onların cəmi müəyyən edilir.

HHI - Hirshman-Herfindal indeksi; Si i-ci sahənin bazar payıdır. HHI-nin qiymətləndirilməsi aşağıdakı yanaşmaya əsaslanır.

**Cədvəl 1.** Hirşman- Herfindal indeksinin bazar konsentasiyası üçün meyyarları [5]

| HHI-nin meyyarları | Təmərgüzləşmə səviyyəsi |
|---|---|
| HHI ≤ 1500 | aşağı səviyyədə təmərküzləşmə |
| 1500 < HHI ≤ 2500 | orta səviyyədə təmərküzləşmə |
| HHI > 2500 | yüksək səviyyədə təmərküzləşmə |

**Azərbaycanda qeyri-neft sektorunun inkişf xüsusiyyətlərinin təhlili.** İqtisadi inkişafın səmərəli təşkilində onun sahə strukturunun optimallığı ən önəmli məsələlərdən biridir. Müstəqilliyin ilk illərindən ölkə iqtisadiyyatının struk-turunda əsas məsələlərdən biri dövlət payının azaldılması qeyri-neft sektorunun xüsusi çəkisinin artırılması ilə bağlı olmuşdur. Əgər 1995-ci ildə ÜDM-də qeyri-dövlət sektorunun payı cəmi 30.3% olmuşdursa bu göstərici 2021-ci ildə 83.5%-dir.

**Cədvəl 2.** Ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı, (faizlə) [5]

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul-cəmi | 81.2 | 83.7 | 83.8 | 84.7 | 85.0 | 80.8 | 83.5 |
| Sənaye | 83.0 | 87.6 | 87.9 | 89.6 | 89.8 | 85.6 | 88.8 |
| Tikinti | 84.5 | 86.8 | 84.6 | 80.2 | 82.9 | 84.6 | 87.5 |
| Kənd təsərrüfatı | 99.8 | 99.9 | 99.9 | 99.9 | 99.9 | 99.9 | 99.9 |
| Ticarət və xidmətlər | 99.6 | 99.6 | 99.7 | 99.8 | 99.7 | 99.9 | 99.7 |
| Nəqliyyat | 81.7 | 82.8 | 82.4 | 83.1 | 83.6 | 80.1 | 84.8 |
| Rabitə | 81.0 | 80.5 | 81.2 | 82.0 | 82.4 | 80.8 | 81.5 |
| Sosial və sair xidmətlər | 57.8 | 58.0 | 56.1 | 56.4 | 58.2 | 51.0 | 52.5 |

Cədvəl 2- nin məlumatları göstərir ki, sosial və sair xidmətlər istisna olmaqla ÜDM-də digər sahələrdə qeyri-dövlət payının həddi 81%- dən artıqdır. Kənd təsərrüfatı, ticarət və xidmətlər sektorunda isə qeyri-dövlət bölməsinin ÜDM-də payı demək olar ki, 100%-dir. Ölkə iqtisadiyyatının inkişafı baxımndan bazar iqtisadiyyatının prinsipləri, xüsusilə də özəl sektorun inkişafı arzuolunandır. Lakin nəzərə almaq lazımdır ki, qeyri-dövlət bölməsinin inkişafı iqtisadi prinsuplərə adekvat olmalıdır. Bu xüsusilə məhsul istehsalı baxımından nəzərə alınmalıdır. Qeyd etdiyimiz kimi son illər ÜDM-də qeyri-dövlət bölməsinin ümumən payı 80%-dən çox təşkil etməsinə baxmayaraq 2017-ci ildə neft-qaz sektorunun ÜDM-də payı 36% təşkil etmişdirsə, bu göstərici 2021- ci ildə 47% qədər yüksəlmişdir. Bununl bağlı cədvəl 3 və şəkil 2- yə nəzər salmaq maraqlı olar.Təhlil üçün götürülən digər illərdə daha yüksək olmuşdur. Dövr ərzində yalnız 2020- ci ildə yalnız bu göstərici cəmi 28% olmuşdur ki, bu da həmin dövrdə qlobal pandemiya əlaəqədar olmuşdur. Başqa sözlə, statistik təhlillər onu deməyə əsas verir ki, qeyri-dövlət bölməsinin ÜDM-də xüsusi çəkisi çox olsada məhsul istehsal edir. Belə analoji fikirləri neft-qaz və qeyri-neft sektorları üzrə artım templərinə də deyd etmək olar. Lakin, məhsul istehsalı üzrə Hirişman-Herfindal indeksini hesablayan zaman aydın olur ki, iqtisadiyyatın mədən-çıxarma sənayesi üzrə təmərgüzləşmə meyilləri vardır.

**Cədvəl 3.** İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ümumi daxili məhsul istehsalı (milyon manatla) [5]

| İllər | UDM | qeyri-neft sektoru | xüsusi çəkisi | neft-qaz sektoru | xüsusi çəkisi | məhsula və idxala xalis vergilər | |
|---|---|---|---|---|---|---|---|
| | | Mln. man. | Faizlə | Mln. man. | Faizlə | Mln. man. | Faizlə |
| 2017 | 70,337.8 | 40,328.0 | 57.3 | 25,005.4 | 35.6 | 5,004.4 | 7.1 |
| 2018 | 80,092.0 | 41,662.0 | 52.0 | 32,231.7 | 40.2 | 6,198.3 | 7.7 |
| 2019 | 81,896.2 | 44,481.8 | 54.3 | 30,051.9 | 36.7 | 7,362.5 | 9.0 |
| 2020 | 72,578.1 | 45,312.2 | 62.4 | 20,417.5 | 28.1 | 6,848.4 | 9.4 |
| 2021 | 93,203.2 | 51,122.2 | 54.9 | 34,501.4 | 37.0 | 7,579.6 | 8.1 |
| 2022 | 133,825.8 | 61,619.5 | 46.0 | 62,340.9 | 46.6 | 9,865.4 | 7.4 |

Eyni zamanda, neft-qaz sektoru və qeyri-neft sektoru üzrə artım tempinə nəzər saldıqda aydın olur ki, qeyri-neft sektoru üzrə artım tempi daha yüksəkdir.




**Şəkil 2.** Neft- qaz və qeyri-neft sektoru üzrə artım tempi əvvəlki ilə nisbətən, (faizlə) [2]

Bu baxımdan fikrimcə, ÜDM- nin qeyri-dövlət bölməsinin payına uyğun məhsul istehsalına nail olunması əhəmiyyətli olardı.

ÜDM-nin qeyri-dövlət bölməsində mövcud payına uyğun məhsul istehsalına nail olunmaması düşündürücü olduğu üçün bu sahədə ilk növbədə istehsal sahələri üzrə ümumi buraxılış statistik göstəricisi əsasında HHİ əsasında təmərgüzləşməni aşağıda göstərilən sahələr üzrə hesablamaq əhəmiyyətli olardı.

**Cədvəl 4.** İstehsal sahələri üzrə ümumi buraxılış [2]

| Iqtisadiyyatın sahələri | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 47.2 | 55.5 | 73.0 | 57.5 |
| Mədənçıxarma sənayesi | 973.9 | 808.5 | 463.2 | 756.0 |
| Emal sənayesi | 87.7 | 104.4 | 124.4 | 145.2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 3.2 | 3.1 | 4.7 | 4.2 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 0.1 | 0.1 | 0.1 | 0.1 |
| Tikinti | 151.4 | 147.8 | 150.3 | 98.3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 112.5 | 120.6 | 148.5 | 120.5 |
| Nəqliyyat və anbar təsərrüfatı | 45.9 | 43.5 | 57.9 | 57.0 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 6.4 | 6.9 | 1.4 | 1.8 |
| İnformasiya və rabitə | 2.9 | 3.7 | 4.8 | 3.5 |
| Maliyyə və sığorta fəaliyyəti | 3.0 | 3.3 | 3.9 | 3.2 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 6.1 | 7.0 | 8.5 | 7.0 |
| Peşə, elmi və texniki fəaliyyət | 3.8 | 4.0 | 4.4 | 3.7 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 0.4 | 0.5 | 0.6 | 0.5 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 13.9 | 16.8 | 27.5 | 23.7 |
| Təhsil | 6.2 | 6.8 | 10.1 | 8.0 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2.9 | 3.4 | 7.6 | 4.9 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 0.6 | 0.6 | 0.6 | 0.6 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 1.2 | 1.2 | 1.2 | 1.1 |
| Fəaliyyət növləri üzrə (HHI) | 1469.3 | 1337.6 | 1092.9 | 1296.9 |

HHİ indeksi əsasında alınan nəticələr onu göstərir ki, 2019-cu ildə aşağı səviyyədə təmərküzləşmə hiss edilir. Ümumilikdə götürüldükdə isə ölkədə aşağı səviyyədə təmərküzləşmə meylləri hiss edilir. Dogrudur 2020-ci ildə bu göstərici demək olar ki, yox səviyyəsində olsa da fikrimcə, bu həmin dövrdə Covid-19 pandemiyası ilə bağlı olmuşdur.

Cədvəl 4-in məlumatları göstərir ki, ölkədə aşağı səviyyədə inisarlaşma meylləri əsasən mədənçıxarma sənayesi, tikinti, ticarət və nəqliyyat vasitələri üzrə hiss edilir. Beləliklə də aparılan təhlillər əsasında aşağıdakı nəticələrə gəlmək olar.

Ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, çağdaş dövrümüzdə milli iqtisadiyyatın inkişafı üçün hazırda artıq inkişaf etmiş ölkələrdə konkret sənaye sahələrinin inkişafına deyil, iqtisadi artımın təmini üçün ilkin şərtlərin formalaşmasına səbəb olan əlverişli biznes mühitinin yaradılmasına, iqtisadiyyatın strukturunun transformasiyasına və bazar uğursuzluqlarının kompensasiyasına yönəlmiş fəaliyyət kimi yanaşmanı əsas götürürlər. Bu da ayrı-ayrı ölkələrdə bir-biri ilə sinxronlaşdırılan müxtəlif iqtisadi siyasətlərin (pul-kredit, büdcə-vergi, rəqabət və s.) təzahürü formasında müəyyənləşdirilir.

**Nəticə.** Qeyri-neft sektorunun möhkəm təməllər üzərində formalaşdırılması vacib məsələlərdəndir. Bunun üçün ilk növbədə informasiya və məsləhət dəstəyinin təmin edilməsi və insan resurslarının inkişafının dəstəklənməsi əhəmiyyətli olardı. Qeyri-neft sektorunun inkişafı baxımından bu sahədə fəaliyyət göstərən işçilər üçün əlavə peşə proqramları üzrə təlim və tədbirlərin keçirilməsi, metodik və elmi-pedaqoji dəstəsin göstərilməsi və eləcədə qeyri-neft sektorunun inkişafı üçün bu sahədə istehsal olunan məhsulların xarici ticarət istiqamətində dəstəklənməsi vacib məsələlərdən hesab edilə bilər.

Eyni zamanda onu da bildirək ki, dövlət iqtisadiyyatın inkişaf baxımından geridə qalan müxtəlif sahələrinin inkişafını stimullaşdırmaq üçün müəyyən dəstələyici addımlar ata bilər. Nəzərə almaq lazımdır ki, təbii sərvətləri bol olan əksər ölkələrdə analoji problemlər yana bilir. Təbii ki, qeyri-neft sənaye sahələrinin stimullaşdırılması üçün ölkə daxilində göstərilən tədbirlələrdən biri kimi daxili baxarın qorunması üçün ən geniş yayılmış metodlardan biri kimi proteksionizm siyasəti də həyata keçirilməsi ola bilər.

**Ədəbiyyat**

1. https://www.oecd.org/
2. http://www.hsib.msu.ru/library/oil.html
3. Chang H.J., Lin J. Should Industrial Policy in Developing Countries con-form Comparative Advantage or Defy it? A debate between Justin Lin and Ha-Joon Chang. Development Policy Review. N27(5). 2009
4. Vəliyev D.Ə., Əsədov A.M."Beynəlxalq iqtisadiyyat". Ali məktəblər üçün dərslik, Bakı, "Avropa" nəşriyyatı, 400s. 2012
5. Measuring economic diversification in Hawaiip.p.40. February 2008
6. https://uploads.cbar.az/assets/ca7a4b6c03edafd2d0219a937.pdf
7. Abbasov İ. Əliyev T.Qeyri-neft sənayesinin iqtisadiyyatı. 501s. Bakı.2017
8. https://stat.gov.az

**References**

1. https://www.oecd.org/
2. http://www.hsib.msu.ru/library/oil.html
3. Chang H.J., Lin J. Should Industrial Policy in Developing Countries con-form Comparative Advantage or Defy it? A debate between Justin Lin and Ha-Joon Chang // Development Policy Review. N27(5). 2009
4. Valiyev D.A., Asadov A.M.Beynalxalq iqtisadiyyat". Ali maktablar uchun derslik, Baki, "Avropa" neshriyyati, 400 s. 2012
5. Measuring economic diversification in Hawaiip.p.40. February 2008
6. https://uploads.cbar.az/assets/ca7a4b6c03edafd2d0219a937.pdf
7. Abbasov I;. Aliyev T. Qeyri-neft senayesinin iqtisadiyyati. 501s. Baki. 2017
8. https://stat.gov.az

*Məqaləyə istinad: Aslanova T.T., Fətahova N.R. Azərbaycanda qeyri-neft sektorunun inkişafını şərtləndirən bəzi amillər. Elmi Əsərlər jurnalı. AzMİU, s. 230- 235, N2, 2023*
*For citation: Aslanova T.T., Fatahova N.R. Some factors determining the development of the non-oil sector in Azerbaijan. Journal of Scientific works/ Elmi eserler. AzUAC, p. 230- 235, N2, 2023*